

# BAYAT



№ 07 (635)



Bəhram FƏRMANZADƏ

## ÖMRÜ ŞAİRLƏRİN ƏLLİYƏ ÇATMIŞ

*"Şairlər ölürlər yaz yağışından" məqaləsinin müəllifi Mahir Qarayevə*

Dünyanın qarışıb
Başı, a qardaş,
Qələmi götürəm
Əlimə yatmır.
Neyləyim, neyləyim
Yaşı a qardaş,
Əsil şairlərin
Əlliyə çatmır.

Durna qatarıdı
Düzülüb gedir.
Sözləri süzgəcdən
Süzülüb gedir.
Əlləri dünyadan
Üzülüb gedir.
Ömrü şairlərin
Əlliyə çatmır.

Dərdi sözünüzün
Olub olmazın.
Eldar Baxışın,
Sabir Almasın,
Qara Vaqifin,
Şair Yılmasın
Şeir elə qatdı
Başını, qardaş.

Axan göz yaşını
Silə bilmədik
Danışa bilmədik,
Gülə bilmədik.
Çoxunun qədrini,
Bilə bilmədik.
Ömrü şairlərin
Əlliyə çatmır.

Sürgündə, məhbəsdə,
Dəmir qəfəsdə.
Boranda, qarda,
Nə bilim harda?
Qıra bilmədilər,
Şair amalın.
Əlliyə çatmadı
Ömrü, ay Allah,
Malik Fərruxun,
Namiq Kamalın.

Əli təbiətli,
Lorka ürəkli.
Cavan şairlərin,
A qardaş, vallah,
Bir çiçək əzməyə,
Bir quş vurmağa,
Əlləri silaha
Tətiyə çatmır.
Bəs niyə, görəsən,
Bəs niyə, Allah
Ömrü şairlərin
Əlliyə çatmır.

Bir qadın ağlayır,
Gözü qabarlı.
Ölmün şairə
Yolu kəsədi.
Ölüm aramızdan
Vaxtsız apardı
Aslan Kəmərlini,
Sərdar Əsədi.

Fironlar, fatehlər,
Tiranlar belə.
Qalxsa da göylərin
Yeddi qatına.
Bəlkə də Allaha
Yaxındır deyə,
Şairlər yüksələn
Pilləyə çatmır.
İlahi, bilmirəm,
Görən, bəs niyə
Ömrü şairlərin
Əlliyə çatmır.

Bu
Yer, bu Göy
Üzündə qərib.
Əllisində qərib,
Yüzündə qərib.
Şairlər dünyanın
Dərdini dərib
Şairlər ölürlər
Yaz yağışından

## MƏMMƏD ARAZ

Sındırdı məni də, sındırdı baba,
Sındırdı bu kəlmə-kötür adamlar.
İndi isə yanımdan səssiz-səmirsiz,
Oyana, bu yana ötür adamlar.

Dolanır bu dünya başıma baba,
Dolanır tarixin təkəri kimi.
Qarışıb gözümün yaşına baba,
Axır dərdli-dərdli Həkəri kimi.

Gözümdə qaralır palçıqlı damlar,
Yurdundan olana dünya mağardı.
Doğma ocağından olan adamlar,
Sizin dərdinizdən saçım ağardı.

Dünyanı dağıdan böhtandı, şərdi,
Quzu tək olanlar şişə taxıldı.
Böyükdür, ay baba, dünyanın dərdi,
Düşmən hiyləgərdi, qonşu paxıldı.

Təmizdi cibim də, boşdu mədəm də,
Şeş ayağım bağlanıb, baba yekdəyəm.
Kimə neyləyəcək, kimə hədəmdə,
Mən özüm bilirəm mən nə kökdəyəm.

Yanır ocağımda yaşım, ay baba,
Qızdırar bu odun istisi kimi.
Yaman dumanlıdır başım, ay baba,
Bir acı siqaret tüstüsü kimi.

## VƏTƏN

Arada ayrılıq, iki yüz ildi,
Qardaşın-qardaşdan əli üzüldü.
Hicran göz yaşına dönüb süzüldü,
İradə, mətanət, dözümsən, Vətən!

Sərhəd məftilindən tikandı yaxan
Sinəmdə qıvrılıb Arazsan axan,
Bu taydan o taya həsrətlə baxan,
Vüsalın gözləyən gözümsən, Vətən!

Ömür tək əriyən yolumda şamsan,
Muraza can atan arzusan, kamsan,
Nağıllı gecəsən, qərib axşamsan,
Sən sənin, sən mənim özümsən, Vətən!

## TANRI YAZAN ALIN YAZIM BELƏYMİŞ

Bənövşəni kol dibində yoxladım,
Novruz gülün sübh çağında qoxladım,
Qızıl gülün budağında yuxladım,
Mənim meylim çəmənəymiş, güləymiş.

Sel apardı suyum gələn novu da,
Bərəsində vurammadım ovladığım ovu da,
Möhtac idim bircə ovuc qovuda,
Yönü demə qismətimin yeləymiş.

Sinəm üstə qəm sazını köklədi,
Ağ günümə dərd şələsi yüklədi,
Tələ qurdu fələk məni təklədi,
Tanrı yazan alın yazım beləymiş.

## MUĞAM

*Muğam cənnətinin "Dədə Qorqud"u Xan əmi Şuşinskinin əziz xatirəsinə ithaf edirəm.*

Muğam bulağından süzülüb gələn,
Cabbarın, Seyidin, Xanın səsidi.
Hər bulaq asdıqca sinəmi dələn,
Yanıqlı, "Qarabağ" şikəstəsi"di.

Ağabala köklənib "Zabul"un üstə,
Elə köklənib ki, özünü sıxmır.
Fatma oxuyanda "Kəsmə şikəstə",
Ürəyim böyüyür cahana sığmır.

Niyaməddin özünü oda toxudu,
Özün də, bizi də yandırdı ahı.
Niyaməddin "Şahnaz" oxudu,
Qulaq asanların nəydi günahı?!

Sabir oxuyanda ruhum titrəyir,
Əriyir səsində dağ, dərə qardaş.
Bir gözəl başını köksümə əyir,
Hey qulaq asdıqca "Şüştər"ə qardaş.

Hopupdu muğama Canəli qanı,
Əlibaba muğamda işıqdı, nurdu.
Muğamla fəth etdi bütün dünyanı,
Alim ürəklərdə bir yuva qurdu.

Sən onda atəşə, sən bir oda bax,
"Mənsuriyyə" dil açıb, elə səslənib.
Yaqubda gücə bax, istedada bax,
Elə bil sinəsi üstə bəslənib.

Sənətdə olmalı bu meyar, çəki,
Arif oxuyanda bağrıma basdım.
Zirvədən tökülən şəlalə təki,
Qədirin səsindən özümü asdım.

Muğam möcüzədi, muğam sehrdir,
Dədə Süleyman da elə yüklənib.
Tanrının səsinə vuran möhürdü,
Ürəyi "Dəşti"nin üstə köklənib.

Muğam möcüzədi-meydani dardı,
Muğam ədalətin, haqqın səsidir.
Muğamda ilahi qüdrəti vardı,
O, xeyrin şər üstə qələbəsidir!

## LƏNƏTLƏNMİŞ EVDİ - BU EV

Hər otaqda xəstə yatıb,
Yatan dəstə-dəstə yatıb.
Yatan tikan üstə yatıb,
Lənətlənmiş evdi - bu ev.

Yox "İncili", "Quran"ı da,
Yox sübhü də, toranı da,
Yox bir arxa duranı da,
Lənətlənmiş evdi - bu ev.

Yox urvadı, darısı da,
Yox çəpəri, barısı da.
Yox ağbirçək qarısı da,
Lənətlənmiş evi - bu ev.

Taqət qoldan, dizdən düşüb,
Ahıl, cavan üzdən düşüb,
Allah bu ev gözdən düşüb,
Lənətlənmiş evdi - bu ev.

## CƏLLAD KÖTÜYÜ

Bir sehrli xalıyam
İlmə-ilmə söküldüm.
Palıd idim a qardaş,
Şimşək vurdu büküldüm.
Budaq-budaq budandım,
Yarpaq kimi töküldüm.
Günün günortasında
Kölgəmizi kəsdilər.

Od oğluyam odam mən,
Gəl od götür gözümdən.
Çox imtahan vermişəm,
Dəyanətdən dözümdən.
Yaş yerinə a qardaş,
Araz axır gözümdən.
Gaşımız altdan axan,
Selimizi kəsdilər.

Düşmən oldu sağımız,
Zindan oldu solumuz.
Qıfıllandı dilimiz,
Zəncirləndi qolumuz.
Əridik qəm içində
Bağlandı haqq yolumuz,
Haqq-ədalət söyləyən
Dilimizi kəsdilər.

Yad xışına qoşulan,
Yüz illərlə kəl olduq.
Axdıq yadlar cibinə,
Qızıl olduq, ləl olduq.
Süfrəmizdə tamarzı,
Biz uzanan əl olduq.
Cəllad kötüyü üstə,
Əlimizi kəsdilər.

## MƏNİ QINAMAYIN, MƏNİ AY ELLƏR!

Məni təkləyibdi,
Dərdim yağı tək.
Bir dərd gəzdirirəm
Boyunbağı tək.
Məni qınamayın,
Məni, ay ellər.

Sürməm nə gözə,
Qoşa düşməyir.
Cütlənmiş zərim də
Qoşa düşməyir.
Dərdimi yaxınım
Başa düşməyir.
Məni qınamayın
Məni, ay ellər.

Haqsızım çox oldu,
Haqlı sayımdan.
Atdığım oxum da
Çıxmır yayımdan.
Qismətim beləymiş,
Tale payımdan
Məni qınamayın,
Məni, ay ellər!